Ötən sayın üz qabığında və eləcə dərgimizin bu sayında foto işlərini oxuculara təqdim etmək istədiyimiz Şirməmməd Nəzərli 1977-ci ildə indiki BDU-nun jurnalistika fakültəsini bitirib. Azteleradio şirkətində redaktor, Azərbaycan Jurnalistlər Birliyində baş məsləhətçi işləyib, "Vışka" qəzetinin Ukraynada xüsusu müxbiri, beynəlxalq "İrs" jurnalının təsisçisi və baş redaktoru olub, bir müddət Moskvada yaşayıb, "Salamnews" informasiya agentliyində redaktor işləyib. Roman, publisistika,pyes, hekayə, bədii tərcümədən ibarət 12 kitab müəllifidir. Səhnə əsərləri Bakı teatrlarında və Sumqayıt Dövlət Dram teatrında tamaşaya qoyulub. Ondan soruşanda ki "üç yaradıcılıq sahəsində paralel fəaliyyət göstərmək yorucu deyilmi", o: "Bədii yaradıcılıq yazıçını yazı masasına bağlayırsa, jurnalistika onu kabinetdən çıxıb material axtarışına məcbur edir. Amma foto aparatı deyir ki, get gəz, dolan, müşahidə elə, çək, həyatın, təbiətin, insanların nəbzini tut! Bax, bu sonuncu təklif aktiv həyat tərzi, sağlamlıq üçün dərman kimi bir şeydir", - deyə yarızarafat-yarıciddi fikrini bildirir.

Şirməmməd Nəzərlinin fotolarının hərəsində bir xatirə yatır, ayrl-ayrı coğrafi məkan və ilin fəslı əks olunur: Moskva, Sankt-Peterburq, Türkiyə, İran... Bakı, Abşeron, Şabran, Quba, Qusar, Gədəbəy, Masallı, Lerik, Lənkəran, Şamaxı, Ağsu, Şəki, Naxçıvan...

Foto işinə həvəs onda hələ tələbəlik illərində yaranıb. İlk kamerası kiçik "Smena-8" olub, sonra "Zenit". Hərbi xidmət, universitet illəri təhsili, məişət qayğıları, sosial problemlər foto işilə yaxından məşğul olmağa mane olubsa da, onu tam həvəsdən sala bilməyib. Bədii əsərlərini yazıb bitirəndən sonra qələmini foto aparatı əvəzləyib. Heç bir söz gözlə görünəni əvəz edə bilmədiyi kimi, heç bir foto da sözün yerini vermir. Amma elə foto da var ki, bir kitab sözün deyə bilmədiyini göstərməyə qadirdir. Məsələ heç bunda da deyil. Məsələ ondadır ki, ölkəmizdə bədii yaradıcılıqla məşğul olan kifayət qədər insan var; indiyə kimi nə qədər foto aparatı satılıbsa, o qədər də fotoqraf mövcuddur.



# FOTO VƏ SÖZ HÖRGÜSÜ



*Eyni zamanda ölkənin üç yaradıcılıq birliyinin (Yazıçılar, Jurnalistlər və Fotoqraflar) üzvü olmaq və vaxtaşırı bu birliklərin yönünə uyğun könüllü olaraq hesabat vermək, doğrusu heç də asan deyil. Çünki yazıçı kimi əsər yazıb çap etdirmək, jurnalist kimi hər gün oxucunu təzə xəbərlə məlumatlandırmaq və yeni-yeni fotolar çəkmək - enerji, həvəs, vaxt tələb edir. Nəticə olaraq sonra da adı çəkilən yaradıcılıq sahələrinə uyğun kitab çap etdirmək, jurnalist materialı təhvil vermək və foto sərgisi təşkil etmək lazım gəlir. Diqqət çəkən bir də odur ki, üç sahəni paralel olaraq uğurla aparan şəxsin - Şirməmməd Nəzərlinin 70 yaşı bu günlərdə qeyd olundu.*





Ş.Nəzərli gəldiyi qənaətin nəticəsi olaraq "Foto və söz" adlı yeni kitab ərsəyə gətirib. Bu əsər ali məktəblərin jurnalistika fakültəsi tələbələri, həm də foto sənəti ilə maraqlanan hər kəs üçün nəzərdə tutulub. Kitab BDU-nun jurnalistika fakültəsi Elmi Şurasında müzakirə olunub və onun metodik vəsait kimi istifadəsi qərarı alınıb. Kitab hazırda çap prosesindədir.

Maraqlıdır ki, kitabında fotonun bir sənət kimi yaranma tarixindən, onun keçdiyi mərhələlərdən, foto aparatlarının çeşidlərindən, Azərbaycanda bu sənətin inkişafından və yerli fotoqrafların fəaliyyətindən, foto janrları və onlardan yazılı mətbuatda istifadə qaydalarından, fotoqrafın peşə etikasından və digər mətləblərdən yazan müəllif nümunə üçün məhz özünün çəkmiş olduğu fotolardan istifadə edir. Beləliklə, bu kitabda onun 170-dən çox fotosu yer alıb.

Şirməmməd Nəzərli foto sənətinə məsuliyyətlə yanaşır. Təsadüfi deyil ki, ilk sərgisi çox gec - 9 il əvvəl keçirilib, özü də üzvü olduğu Azərbaycan Yazıçılar Birliyində. İkinci sərgisi Fotoqraflar Birliyində, üçüncüsü Azərbaycan Mətbuat Şurasında. "Azərbaycan rəssamlarının portretləri" foto sərgisi isə Rəssamlar İttifaqının V.Səmədova adına Sərgi salonunda baş tutub. Göründüyü kimi, Ş.Nəzərli foto işlərini məhz üzvü olduğu yaradıcılıq birliklərində tələbkar həmkarlarına təqdim edib. Rusiyanın Azərbaycandakı səfirliyinin İnformasiya və Mədəniyyət Mərkəzi onun Rusiyada yaşadığı illərin məhsulu olan fotolarını "Moskva bakılı fotoqrafın gözü ilə" adı altında sərgiləyib.

Ş.Nəzərlinin bu gün sizə təqdim etdiyimiz fotoları da qoy "Qobustan"ın özünəməxsus sərgisi olsun.

**Esmira Ağababa qızı**